Dünyadakı epizootik vəziyyətlə bağlı tətbiq edilmiş bəzi məhdudiyyətlər aradan qaldırılıb

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) rəsmi məlumatlarına əsasən, Çin Xalq Respublikasının Zhecian, Anhui, Quandun, Cyansi, Fuciyen əyalətlərində nodulyar dermatit, Norveç Krallığının Roqaland, Troms-Oq-Finnmark inzibati ərazi vahidlərində, Ekvador Respublikasının Kotopaxi, Bolivar, Piçinça, Tunquraua, Asuay, İmbabura, Napo, Pastasa, Morona-Santyaqo, Kanyar, Quayas əyalətlərində, Amerika Birləşmiş Ştatlarının Missuri, Ohayo, İndiana, Puerto-Riko, Nyu-York, Pensilvaniya ştatlarında isə qeydə alınmış yüksək patogen quş qripi xəstəliyi aradan qaldırılıb.

Belə ki, qeyd olunan ərazilərdə ÜHST-nin “Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi”nə əsasən, xəstəliyin ləğv edilməsindən sonra gözləmə müddəti başa çatıb və epizootik sağlamlıq statusu bərpa olunub.

Bununla əlaqədar respublika ərazisinin bu yoluxucu xəstəliklərdən qorunması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həmin ərazilərə tətbiq edilmiş məhdudiyyətlər aradan qaldırılıb. Eyni zamanda müvafiq tədbirlərin görülməsi üçün Dövlət Gömrük Komitəsinə müraciət olunub.